# Tarixi şəxsiyyətlərə hörmət böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması amili kimi

**Emilya Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**E-mail:** emilya.huseynova95@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. A.N. Abbasov,
ped.ü.e.d., prof. D.Q. Quliyev

**Açar sözlər:** tarixi şəxsiyyətlər, tarixi şəxsiyyətlərə hörmət, böyük məktəb yaşlı şagirdlər, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyi

**Ключевые слова:** исторические личности, уважение историческим личностям, старшеклассники, гражданство, гражданская позиция, активная гражданская позиция

**Key words:** historical figures, respect for historical figures, high school students, citizenship, citizenship, active citizenship

Tarixdə bir sıra çox şəxslər olub. Onların bəzilərinin əməlləri bəşəriyyət, insanlar tərəfindən lənətlə yad edilib və hazırda da nifrətlə xatırlanır. Onlar ayrı-ayrı ölkələrə və xalqlara, eyni zamanda öz dövlətlərinə və xalqlarına bəlalar gətirmişlər. Söz yox ki, məqalədə bu kimi şəxsiyyətlərdən söz açılmayacaq. Yaxşı və xeyirxah əməlləri, müstəsna xidmətləri, məsləhətləri, ideyaları ilə nümunə göstərəcək şəxsiyyətlər diqqət mərkəzinə gətiriləcək, yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması baxımından həmin nümunələrdən faydalanmağın imkanları və faydası üzərində dayanacağıq.

Ayrı-ayrı sahələrdə – dövlətçilik tarixində, milli-azadlıq hərəkatında (Cavanşir, Babək, Şirvanşah I İbrahim, Qara Yusif, Uzun Həsən, Sara Xatın, I Şah İsmayıl, Cavad xan, M.Ə. Rəsulzadə, Heydər Əliyev), elm (Bəhmənyar, Urməvi, N. Tusi, Lütfi-Zadə), mədəniyyət və incəsənət (Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun, Mikayıl Müşfiq, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Bəxtiyar Vahabzadə, Ömər Eldarov və b.) tarixi şəxsiyyət olaraq tanınan şəxslərin həyat və fəaliyyəti bəhs edəcəyimiz problem baxımından zəngin material verir.

Burada bir cəhət də nəzərdən qaçmamalıdır. Tarixi şəxsiyyətlərdən söz gedərkən problemi yalnız Azərbaycanın tarixi şəxsiyyətləri ilə məhdudlaşmaq olmaz. Dünya tarixində də müxtəlif sahələrdə görkəmli, dahi, əvəzedilməz şəxslər olub. Həm onların tarixi xidmətləri, həm də şəxsiyyətləri qibtə doğurub.

Yer üzündəki əsas dinlərin yaradıcıları Musa peyğəmbər (e.ə. 1993-e.ə. 1273), İsa peyğəmbər, Məhəmməd peyğəmbər (s.ə.s.) (570-632), həmçinin Nuh peyğəmbər, imamlardan İmam Əli (598-661) barədə məlumatların verilməsi məqsədəuyğundur. Bu müqəddəs şəxslər böyük tarixi şəxsiyyətlərdir. Onların şəxsiyyətləri, xoş əməlləri ilə tanış olmaqla həyatda fəal vətəndaşlıq mövqe qazanmaq mümkündür.

Musa peyğəmbər barədə məlumat verilərkən bildirilir ki, e.ə 1393-e.ə 1273-ci illərdə yaşamışdır, Allahın elçisi, Misirdə doğulmuş yəhudi əsilli peyğəmbər idi. Belə deyilir ki, Allah tərəfindən ona Tövrat göndərilmişdir.

Şagirdlər öyrənirlər ki, Nuh peyğəmbər hündür boylu, nazik sifətli, iri gözlü, dərisi buğdayı rəngli şəxs idi. Yaxşı məntiqi vardı. O, indiki insan nəslinin ikinci atası hesab olunur.

Onun camaatın arasında qalma müddəti 950 il olub.

Həzrəti Məhəmməd sonuncu peyğəmbər hesab olunur. O, İslam dininin banisi, müsəlmanlar üçün Allahın elçisi - Rəsulullahdır.

Məhəmməd hələ lap uşaq ikən valideynləri dünyadan köçmüşlər. Atası Abdulla heç Məhəmmədin üzünü də görməmiş, anası Əminə isə o, 6 yaşında olarkən vəfat etmişdi. Sonralar babası Əbdül Mütalib, onun vəfatından sonra əmisi Əbu Talib ona baxmışlar. Məhəmməd onu qayğı və məhəbbətlə əhatə edən həmin şəxsləri həyati boyu böyük minnətdarlıq hissi ilə yad etmişdir.

Məhəmməd 12 yaşında olarkən əmisi Əbu Talibin ticarət işləri ilə bağlı Suriya səfərlərində iştirak etmişdir. Bu səyahətlər onun həyata baxışının zənginləşməsinə böyük kömək göstərmişdir. Sonralar da özü müstəqil Hələbdə və Dəməşqdə olur.

Xristian və yəhudi icmaları aləmi ilə, onların həyat tərzi və ideologiyası ilə yaxından tanışlıq onun dünyagörüşünü formalaşdırmışdır. Həmin dinlərin təkallahlıq haqqında əsas ümumi ehkamı Məhəmmədin təkallahlıq ideyasının qətiləşib möhkəmlənməsinə imkan vermişdir.

Həm də həmin dinlərin bir-birini inkar etməsi, onların "yolu azmaq", "səhv yol ilə getmək" barədə kəskin və düşməncəsinə ittihamları Məhəmmədə Allaha qovuşmaq üçün öz "doğru" yolunu tapmağa təhrik edən əlavə amil rolunu oynadı.

40 yaşında olarkən dini düşüncələr və axtarışlar onun həyatında tədricən daha geniş yer tutmağa başladı. Məhəmməd asudə vaxtını çox zaman bu kimi işlərə sərf edirdi.

Yeniyetməlik dövründən onun daxilində cövlan edən ruhi həyəcan olduqca şiddətlənmişdi.

O, vaxtaşırı Məkkə yaxınlığındakı Hirə mağarasına çəkilərək (xüsusən gecələr) dini düşüncələrə dalırdı. Həmi anların birində insanlara Allahın sözünü oxumağı başlamaq barədə ona əmr verən mələk gözünə görünmüşdü.

İlk dəfə Məhəmmədi Allahın elçisi kimi həyat yoldaşı Xədicə, əmisi oğlu Əli (Əbu Talibin oğlu) və oğulluğa götürdüyü Zeyd qəbul etmişlər.

Sonradan məşhur Məkkə taciri Əbu Bəkr, Osman, Təlhə və Əbdürrəhman Məhəmmədə iman gətirmişlər. Daha sonralar Məhəmmədin tərəfdarları qat-qar artmışdır.

"Bildiklərimiz barədə bilmədiklərimiz: "100 böyük şəxsiyyət" kitabının ilk məqaləsi"ndə deyilir: "Amerika yazıçısı və alimi Maykl Hart bəşər tarixində ən görkəmli 100 şəxsiyyəti seçib onların haqqında kitab tərtib etmək qərarına gəlmişdi. O, bu kitabda həmin şəxsiyyətlərin cəmiyyətə təsir dərəcəsinə görə bioqrafiyalarını sıralamağı nəzərdə tutmuşdu. Maykl Hart öz məqsədini həyata keçirməkdən ötrü kompüterdən istifadə etmişdi.

Kompüterin yaddaşına həmin şəxsiyyətlərin işgüzarlığı, qarşılarına qoyduqları məqsədlərə necə nail olmaları, bəşər tarixinə göstərdikləri təsir barədə materiallar daxil edilmişdi.

Kompüter təhlili nəticəsində tarixdə böyük iz buraxmış 100 şəxsiyyətin adları müəyyənləşdirilmişdi. Bundan sonra kompüter həmin şəxsiyyətlərin arasından yaxşıların yaxşısını da seçmişdi. Ekranda Məhəmməd peyğəmbərin (s.ə.s.) adının birinci görünməsi M. Hartı və onun həmkarlarını şoka salmışdı. Fikirləşmişdilər ki, yəqin kompüter yanlışlığa yol verib. Buna görə də eksperimenti təkrar etməyi lazım bilmişdilər. Lakin kompüterin ekranında Məhəmməd peyğəmbərin (s.ə.s.) adı yenidən birinci görünmüşdü. M.Hart və onun köməkçiləri eksperimenti dəfələrlə təkrar etsələr də, kompüter "sözünün üstündə" möhkəm durmuşdu. Bundan sonra alimlər faktı qəbul etmək məcburiyyətində qalmışdılar. Beləliklə də, 1978-ci ildə Amerikada Maykl Hartın "100 böyük şəxsiyyət" kitabı nəşr olunmuşdu. Görkəmli şəxsiyyətlər siyahısında Məhəmməd peyğəmbərin (s.ə.s.) adının birinci yazılması çoxlarını sevindirmiş, bir çoxlarını isə əndişələndirmişdi.

Maykl Hartın fikrincə, kitabda Məhəmməd peyğəmbərin (s.ə.s.) həyat tarixinin İsa peyğəmbərin tərcümeyi-halından irəlidə getməsinin səbəbi Məhəmməd peyğəmbərin (s.ə.s.) İslamın yaradılması və inkişafında şəxsi xidmətlərinin xristianlığın təşəkkül tapmasında İsa peyğəmbərin xidmətlərindən böyüklüyüdür.

Məhəmməd peyğəmbər (s.ə.s.) tarixdə həm dini, həm də siyasi fəaliyyəti son dərəcə uğurlu olmuş yeganə şəxsiyyətdir. O, İbrahim peyğəmbərin təkallahlıq ənənələrinin davamçısıdır və dünyanın ən böyük dinlərindən olan islam dininin əsasını qoymuşdur. Bütün alimlər onu böyük müvəffəqiyyətlər qazanmış siyasi lider hesab edirlər. Onun vəfatından on dörd əsr keçməsinə baxmayaraq, peyğəmbərin şəxsiyyətinin əhatəliliyi dünyanın müxtəlif guşələrində yüz milyonlarla adamı xoş əməllərə səsləyir" (1).

Yuxarı sinif şagirdləri ilə söhbətlər, disputlar, müzakirələr zamanı onlarda tarixi şəxsiyyətlərə hörmət və rəğbət hisslərini formalaşdırmaq, fəal vətəndaşlıq və həyat mövqeyi tərbiyələndirmək üçün Makedoniyalı İskəndər (356-323 b.e.ə.), Atilla (406-453), Qay Yuli Sezar (bizim e.ə. 100-cü il), Osmanlı dövlətinin qurucusu və ilk hökmdarı I Osman (1299-1326), Teymurilər dövlətinin banisi Əmir Teymur (1336-1405),Osmanlı sultanı İldırım Bəyazid (1360-1403), İstanbulu fateh etmiş Sultan II Mehmət (1432-1481), Sultan Süleyman (1494-1566), Türkiyə Respublikasının qurucusu və ilk prezidenti Mustafa Kamal Atatürk (1881-1938) və b. bu kimi sərkərdə və dövlət xadimləri; ABŞ prezidentləri Corc Vaşinqton (1732-1799) və Franklin Ruzvelt (1882-1945); Fransa imperatoru I Napoleon Bonapart (1769-1821), SSRİ dövlət xadimi İosif Stalin (1879-1953), Fransa prezidenti Şarl de Qoll (1890-1970) və başqa dövlət başçıları barədə materiallar əsas götürülə bilər.

Aparılmış məqsədyönlü və sistemli iş nəticəsində yuxari sinif şagirdlərinə çatdırmaq olar ki, ləyaqətli tarixi şəxsiyyət olan Atilla türk dünyasının çox məşhur və öyünəlisi sərkərdələrindən biri olub. O, "Avropanın imperatoru" titulunu qazanmış Hun İmperiyasının hökmdarı idi. İtil (Volqaboyu) türkləri nəslindən olduğu güman olunur. Orta boylu, qıyıq gözlü, enli kürəkli, qara saçlı, seyrək saqqallı, natiqlik qabiliyyətinə malik, qonaqpərvəriydi.

Atillanın atası Muncuk xan Hun İmperiyasının qurucularından biri idi.

Atilla Avropa qitəsinin üçdə ikisindən çoxuna hakim oldu, öz dövlətinin sərhədlərini Asiyaya kimi genişləndirə bilmişdi. O, hakimiyyəti dövründə Qərbi və Şərqi Roma imperiyalarını hücumlar edərək yeni ərazilərə sahib olurdu. Odur ki, Orta əsr salnamələrində qəddar hökmdar kimi qələmə verilir və Avropa mənbələrində "Tanrının Qamçısı" adlanır. Atilla son dərəcə yenilməz və güclü sərkərdə olmuş, məğlubiyyətin nə olduğunu bilməmişdir.

Atilla, bir çox başqa hökmdarlardan fərqli olaraq, Allaha inamlı şəxsdi. Ordusu macarlardan, güclü süvarilərdən və müxtəlif növ silahlardan ibarət idi. Atillanın ordusunda güclü nizam-intizam vardı.

Qədim xristian tarixçisi Ammian Marsellin hunların təsvirini aşağıdakı kimi verir: "Onlar öz arabalarında cəlayi-vətən adamlar kimi köç edirlər. Bu arabalar onların evidir. Orada arvadları oturur. Onlar paltar tikir və uşaqları saxlayırlar. Hunlar özlərinin yöndəmsiz, amma dözümlü atlarına elə bil bitiblər. Atdan düşmədən öz işlərini görürlər: alırlar, satırlar, ictimai yığıncaqlarda da atdan düşmürlər. Onlar cəlddirlər, atları isə çox sürətlidir. Döyüş vaxtı paz şəklində düzülüb hayqıraraq düşmənin üzərinə atılırlar. Ammian Marsellin yazır ki, hunlar kəmənddən silah kimi çox məharətlə istifadə ediblər. Qılıncları düz, hər iki tərəfi kəsici olub. Uzunluğu bir metrdən artıq olurmuş. Asimmetrik kamandan istifadə ediblər. Bu kamanların üst hissəsi alt hissədən uzun imiş. Bu cür quruluş kamanı daha elastik və at belində çaparkən atmaq üçün daha əlverişli edərdi" (2).

Atilla Qərbi Roma İmperiyasını da öz torpaqlarına qatmaq fikrində idi. Ordunun

imperiyaya yürüşü zamanı Papa Atillanın önündə diz çökərək əhf diləmişdi. Ona görə, Atilla Romanı fəth etmək fikrindən daşınmışdı. Bir sərkərdə, bir hökmdar kimi onunla bacarmaq sadəcə mümkün deyildi. Odur ki, düşmən xəyanətə əl atmaq məcburiyyətində qaldı. Son arvadı öyrədildi, o da gərdək gecəsi Atillaya qəsd etdi.

Əmir Teymur haqqında söz açılarkən göstərilə bilər ki, o, görkəmli sərkərdə, Mərkəzi, Qərbi və Şərqi Asiyanın, habelə Qafqazın, Rusun və Volqaətrafı bölgələrin tarixində böyük rol oynamış şəxsiyyət olub.

Böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunması işində alimlərin, o cümlədən filosof, psixoloq və pedaqoqların, bəstəkarların, yazıçı və şairlərin, rəssamların nümunələri də böyük rol oynayır. Belə ki, antik yunan filosofları Platon (427-347 b.e.ə.), Aristotel (384-322 b.e.ə.), Sokrat (469?-399 b.e.ə.); çin filosofu Konfutsi (551-479 b.e.ə.), görkəmli türk filoloqu Mahmud İbn Huseyn İbn Muhamməddəl-Kaşğari (1029-1105), yəhudi əsilli niderland filosofu Benedikt Spinoza (1632-1677), holland filosofu Rene Dekart (1596-1650), alman filosofları İmmanuel Kant (1724-1804) və Fridrix Vilhelm Nitsşe (1844-1900) və b. materiallarla X-XI sinif şagirdlərini tanış edərək, onlara fəal vətəndaşlıq mövqeyi aşılaya bilərik.

Benedikt Spinoza yeni dövr fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri, rasionalist, panteist kimi təqdim olunmalıdır.

Hind mütəfəkkiri və ictimai xadimi Mahatma Qandi (1869-1948); Avstriya psixoloqu, psixoanaliz elminin banisi Ziqmund Freyd (Freud) (1856-1939), İsveçrə psixoloqları Karl Qustav Yunq (Jung) (1875-1961) və Jan Piaje (1896-1980); Avstriya bəstəkarları Volfqanq Amadey Motsart və (1756-1791) və İohan Sebastyan Bax (1685-1750), alman və Avstriya bəstəkarı Lüdviq van Bethoven (1770-1827), alman yazıçısı Yohann Volfqanq Höte (1749-1832), hind yazıçısı Rabindranat Taqor (1861-1941); İtaliya alimi və rəssamı Leonardo da Vinçi (1452-1519), İspaniya rəssamı Pablo Pikasso (1882-1973), İtalyan rəssamı, heykəltəraşı, arxitektoru, şair Mikelancelo (1475-1564), holland rəssamı Rembrandt (1606-1669), ingilis dramaturqu Uilyam Şekspir (1564-1616), rus şairi Aleksandr Puşkin (1799-1837), rus yazıçısı Fyodor Dostoyevski (1821-1881), italyan yazıçısı Dante Aligyeri (1265-1321), fransız yazıçısı və mütəfəkkiri Volter (1694-1778), türk şairi və mütəfəkkiri Yunis Emrə (1238-1321), Amerika yazıçısı Teodor Drayzer (1871-1945), alman yazıçısı Fridrix Şiller (1759-1805), fransız yazıçısı Onore de Balzak (1799-1850), ingilis alimi İsaak Nyuton (1643-1727) barədə yuxarı sinif şagirdlərinə zəruri məlumat çatdırmaq məsləhətdir.

Yunis Emrədən söz açılarkən demək olar ki, o, Anadoluda türkcə şeirin banilərindən biri, İslam filosofu idi. 1991-ci ildə Yunus Əmrənin 750 illik yubileyi UNESCO tərəfindən təntənəli şəkildə qeyd edilmişdir.

Tədqiqatlardan görünür ki, yuxarı siniflərdə Azərbaycan tarixi və ədəbiyyatı, Azərbaycan Respublikasının fiziki coğrafiyası fənlərinin, sinifdənxaric tədbirlərin imkanlarından faydalanmaqla X-XI sinif şagirdlərini dövlətçiliyimiz və milli-azadlıq hərəkatı tarixində, müstəqilliyimizin və suverenliyimizin qorunub saxlanması üzrə mübarizədə, elm, mədəniyyət və incəsənətimizin inkişafında xüsusi xidmətləri olmuş şəxsiyyətlərin müsbət nümunələri əsasında tərbiyələndirmək mümkündür.

Fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunması sahəsində yuxarı sinif şagirdləri ilə təlim-tərbiyə işlərinin səmərəli qurulması məqsədilə göstərilən dərslərdə və sinifdənxaric tədbirlərdə müəllimlərin, sinif rəhbərlərinin, tərbiyə işləri üzrə direktor müavininin tarixi şəxsiyyətlərlə bağlı yuxarı sinif şagirdlərində hansı həcmdə məlumatlar çatdırdıqlarını və onları tərbiyəvi cəhətdən necə yönəltdiklərini, məktəblilərin tarixi şəxsiyyətlərə

münasibətlərini, bu şəxslərin hansı müsbət keyfiyyətlərinin həmin insanlara xoş gəldiyini, bu dəyərli şəxsiyyətlərin nümunələrinin gənc nəslin davranış və rəftarında, xarakterində, şəxsiyyətlərarası münasibətlərdə necə bir müsbət təsir göstərdiyini müəyyənləşdirmək vacibdir.

Tarixi şəxsiyyətlərə aid materiallarla tanışlıq sahəsində işlərin aşağıdakı sistemlə görülməsi məsləhətdir:

1. Təlim prosesində fənlərin tərbiyəedici imkanlarının diqqət mərkəzində dayanması, tarixi şəxsiyyətlərin həyatına və fəaliyyətinə aid, eyni zamanda onun öz əsərlərinin öyrənilməsi.
2. Bu və ya başqa mövzu keçilməzdən əvvəl məktəblilər tarixi şəxsiyyətlə bağlı bədii, elmi-kütləvi əsərlərlə tanış olur və ya onun (alimin, yazıçı və şairin və b.) əsərlərini mütaliə edirdilər. Mövzunun tədrisi zamanı bu məlumatlar da diqqət mərkəzində olmalıdır.
3. Qəzet və jurnal məqalələrindən, televiziya verilişlərindən, kino və teatr tamaşalarından, bədii və sənədli filmlərdən alınan məlumatlar məlumatlar dərsdə dinlənilməlidir.
4. Sinifdənxaric tədbirlər nəzərdə tutularkən yuxarı sinif şagirdləri yeni ədəbiyyatlarla tanış olmalıdırlar.

**Məqalənin aktuallığı.** Məqalədə Böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması yeni pedaqoji təfəkkür şəraitində mümkün məsələlərdən biridir. Yaxşı haldır ki, tarixi şəxsiyyətlərə hörmət bu işdə vasitə kimi götürülür.

**Məqalənin elmi yeniliyi.** Tarixi şəxsiyyətlərə hörmət böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması amili kimi nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Gənc tədqiqatçılar, magistrantlar, doktorant və dissertantlar məqalədən faydalana biləcəklər.

## Ədəbiyyat

1. http://www.anl.az/down/meqale/azerbaycan/2010/aprel/116080.htm.
2. https://az.wikipedia.org/wiki/Attila.

**Э. Гусейнова**

## Уважение к историческим личностям как фактор формирования активной гражданской позиции у старшеклассников

## Резюме

История богата многими личностями. Деяния некоторых из них вспоминаются ненавистью со стороны людей и всего человечества них проклинают по сей день. Они принесли много бед многим странам и народам, а также своему государству и народу. В представленной статье не упоминаются такие личности. В данной статье речь идет о личностях, отличающихся благим делами, советами, идеями, являющимися примером для многих. Автор особое внимание уделяет возможностям и преимуществам использования этих примеров для формирования активной гражданской позиции у старшеклассников.

**E. Huseynova**

## Respect for historical persons as a factor of forming an active civil position at high school students


## Summary

The story is rich in many personalities. The acts of some of them are remembered by the hatred of people and all of humanity and they are cursing them to this day. They brought a lot of trouble to many countries and peoples, as well as to their state and people. The presented article does not mention such individuals. This article deals with individuals who are distinguished by good deeds, advice, and ideas, which are an example for many. The author pays special attention to the possibilities and advantages of using these examples to form an active citizenship among high school students.


**Redaksiyaya daxil olub:** 03.12.2018